# Quruculuq və inkişaf yolu

**Bu gün Azərbaycan xalqı həyatının yeni bir dövrünü — müstəqillik dövrünü yaşayır. İstər millətin tale məsələsi olan dövlət müstəqilliyinin əldə edilməsi, istərsə də onun qorunub saxlanılması otuz ildən artıq bir müddət ərzində Azərbaycanın məsuliyyətini öz çiyinləri üstündə daşıyan, onu bir dövlət kimi tarixin sınaqlarından çıxaran ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır.**

1993-cü ilin iyununda Azərbaycan xalqı dövlətin idarə olunmasını yenidən Heydər Əliyevə etibar edəndə, bu dövlətin taleyi Tanrının ümidinə qalmışdı. Ölkədə hakimiyyətsizlik, hərc-mərclik baş alıb gedirdi və ölkənin müstəqil dövlət kimi varlığı sual altında idi. Heydər Əliyev özü o dövr haqqında deyirdi: "1993-cü ilin iyunundan başlayaraq, ilk növbədə, hakimiyyət boşluğu aradan qaldırıldı, respublikanın müxtəlif bölgələrində baş qaldırmış separatçı qüvvələr və parçalanma meyilləri sağlam düşüncəli vətəndaşların, xalqın böyük əksəriyyətinin fəal köməyi ilə zərərsizləşdirildi, vətəndaş müharibəsi təhlükəsinin qarşısı alındı. Ayrı-ayrı şəxslərə və siyasi qruplaşmalara xidmət edən silahlı birləşmələr ləğv edilməyə başlandı, Azərbaycan dövlətçiliyinə, müstəqilliyə, ərazi bütövlüyünə qəsdlər təşkil edən cinayətkar ünsürlər cəmiyyətdən təcrid edildi və cəzalandırıldı. Dövlət qurumları ilə xalqın birliyi, yekdilliyi təmin edildi, etnik və dini mənsubiyyətindən asılı olmayaraq, bütün vətəndaşlarda dövlətə və Vətənə mənsubluq hissləri aşılanmağa başlandı".

Heydər Əliyevin qayıdışı ilə Azərbaycan xalqında ruh yüksəkliyi, öz gələcəyinə inam yarandı və Heydər Əliyev ölkəyə milli dövlətçilik yaratmağın mümkün olması barədə yeni stimul verdi, Azərbaycanın başı üstündə dolaşan qara buludlar dağılmağa başladı, Azərbaycan parçalanmaq təhlükəsindən xilas oldu. Nəzərə alsaq ki, milli azadlığa gedən yol məhz milli oyanışdan, milli dirçəlişdən, milli ruhun canlanmasından keçir, onda Heydər Əliyevin gəlişinin nə demək olduğunu açıqlamağa ehtiyac qalmır.

Milli-mənəvi və bəşəri dəyərlərin ən ali prinsiplərini ardıcıllıqla zənginləşdirən ümummilli liderimizin iradəsi, qətiyyəti, zəngin idarəçilik təcrübəsi, Vətənin azadlığı və müstəqilliyi uğrunda apardığı gərgin mübarizə nəticəsində ölkədə ictimai-siyasi sabitlik, əmin-amanlıq bərqərar oldu, demokratik-hüquqi dövlət quruculuğunda sanballı nailiyyətlər qazanıldı.

Bütün Azərbaycan vətəndaşları yeni əsrin başlanğıcında belə bir həqiqəti tam dərk etmişlər ki, ölkəmizdə milli tərəqqinin 30 ildən artıq bir mərhələsi milli mənafeyi hər şeydən uca tutan, zəmanəmizin böyük siyasi və dövlət xadimi, milli dövlət quruculuğumuzun memarı Heydər Əliyevin millət və Vətən sevgisindən qaynaqlanan fəaliyyəti ilə bağlıdır.

Zəngin siyasi və dövlətçilik təcrübəsi sayəsində Azərbaycanı parçalanmaq və məhv olmaq təhlükəsindən xilas etmiş Heydər Əliyevin başçılığı ilə hazırlanmış yeni Konstitusiyamız və demokratik əsaslarla seçilmiş ilk parlamentimiz Azərbaycanın müasir tarixində tamamilə yeni səciyyəli bir mərhələnin başlanğıcı oldu. Bu illər ərzində Heydər Əliyevin rəhbərliyi ilə islahatların hüquqi bazasının yaradılması, insan hüquq və azadlıqlarının qorunması sahəsində mühüm sənədlər qəbul edilmiş, respublikamız müxtəlif beynəlxalq konvensiya və sazişlərə qoşulmuş, qanunvericilik, icra və məhkəmə hakimiyyətlərinin qarşılıqlı fəaliyyətinin təmin edilməsi məqsədilə xeyli tədbirlər həyata keçirilmişdir.

Heydər Əliyev milli qanunvericiliyimizin təkmilləşdirilməsi, insan hüquq və azadlıqlarının qorunmasının daha etibarlı təmin edilməsi məqsədilə 22 iyun 2002-ci il tarixli fərmanla Konstitusiyada dəyişikliklər edilməsi haqqında Azərbaycan Respublikasının Referendum aktı layihəsini ümumxalq müzakirəsinə çıxardı.

Referendumun keçirilməsi insan hüquq və azadlıqlarının qorunmasını daha da gücləndirdi, vətəndaşlara, Ombudsmana, Konstitusiya Məhkəməsinə müraciət etmək hüququ verdi, ölkənin seçki sistemini daha da təkmilləşdirdi. Milli Məclisdə Referendumun nəticələrindən irəli gələn müxtəlif qanun layihələri hazırlandı. Azərbaycanın Avropa Şurasına tamhüquqlu üzv qəbul olunması da ulu öndərimizin tarixi xidmətlərindəndir.

Heydər Əliyevin apardığı uğurlu xarici siyasət Azərbaycanın bir çox ölkələrlə, mötəbər beynəlxalq təşkilatlarla əlaqəsini günbəgün möhkəmləndirirdi. Bu gün Azərbaycanın ATƏT, Avropa Şurası, NATO Parlament Assambleyası, İslam Konfransı Təşkilatı və başqa beynəlxalq təşkilatlarla sıx əlaqə saxlaması, bu qurumlarda bilavasitə iştirakı hüquq islahatları sahəsində təcrübə qazanmaqda respublikamıza çox böyük fayda verir.

1994-cü ildə cəbhədə atəşkəsə nail olunması da Heydər Əliyevin tarixi xidmətidir və Heydər Əliyev bununla ölkəyə sabitlik gətirdi, iqtisadi islahatları işə saldı, Azərbaycana nəhəng xarici sərmayələr cəlb etdi, "Əsrin müqaviləsi" ilə Qərbi öz tərəfinə çəkə bildi və Azərbaycan neftini Qərb bazarlarına nəql edəcək Bakı-Tbilisi-Ceyhan kəməri reallaşdı. Heydər Əliyevin müəyyənləşdirdiyi strateji inkişaf kursu bu gün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən böyük əzmlə davam etdirilir. Heydər Əliyev kimi siyasət və idarəçilik "sonra ölkənin idarə edilməsi nə qədər çətin görünsə də, Prezident İlham Əliyev bu işin öhdəsindən layiqincə gəldi və öz fəaliyyəti ilə sübut etdi ki, o, polad dayaqlar üzərində mövqe tutan və xalqını xoşbəxt gələcəyə aparmağa qadir liderdir. Təkcə doğma Azərbaycanın deyil, Qərbin, bütövlükdə dünyanın qlobal problemlərinə həssaslıqla yanaşan, baş verən hadisələri dərhal analiz etmək və nəticə çıxarmaq imkanları ilə fərqlənən möhtərəm Prezidentimizin fəaliyyəti ilə yaxından tanış olarkən ondakı enerjiyə, xalqına olan sonsuz məhəbbət və sədaqətə heyran olmaya bilmirsən. İlham Əliyev dünyanın bütün ictimai-siyasi proseslərinə yaxından bələd olan, bu gündən sabaha baxan, "Mən hər bir vətəndaşın prezidenti olacağam" andına əməli işləri ilə sadiq qalan, hər zaman xalqının yanında olan, yeni zirvələri fəth etmək üçün yeni yollar açmağa qadir dövlət başçısıdır, fəxarət və qürur mənbəyidir.

Qüdrətli və zəngin Azərbaycan, ərazi bütövlüyü, iqtisadi tərəqqi və müasirləşmə, demokratik inkişaf, hər bir vətəndaşa sosial qayğı, ədalətli cəmiyyət İlham Əliyev fəaliyyətinin təməl prinsipləridir. Heydər Əliyev ənənələrinə sadiq qalaraq fəaliyyətində demokratik dəyərlərə söykənən möhtərəm Prezidentimiz qısa zaman kəsiyində Azərbaycanı təkcə regionda deyil, bütövlükdə dünyada sayılıb-seçilən dövlətə çevirdi, ona yeni nəfəs verdi.

Təməli ulu öndər tərəfindən qoyulan nəqliyyat sektorunda da müasirləşmə və yeniləşmə cənab İlham Əliyev tərəfindən dövrün tələblərinə uyğun uğurla reallaşdırılır. Bu gün nəqliyyat sektorunun bütün sahələrində olduğu kimi ölkənin polad magistralında da irihəcmli layihələr həyata keçirilir. Bu gün XXI əsrin ən böyük tikintilərindən biri olan Bakı-Tbilisi-Qars yolu xəttinin tikintisi yekunlaşmaq üzrədir. Bundan başqa bu gün Azərbaycan dövlətinin önəm verdiyi digər beynəlxalq nəqliyyat layihələrindən biri də "Şimal-Cənub", "Şərq-Qərb" Beynəlxalq nəqliyyat dəhlizləridir ki, bu dəhlizlərin reallaşması ilə ölkəmiz dünyada böyük nəqliyyat, logistik mərkəzə çevriləcəkdir. Qeyd etmək lazımdır ki, Prezident İlham Əliyevin nəqliyyat sektoruna göstərdiyi diqqət və qayğının nəticəsidir ki, son zamanlar bu sektorda islahatlar sürətlə aparılır və demək olar ki, dəmir yolunun tarixində yeni bir inkişaf və tərəqqi erasına start verilmişdir.

Bu gün Azərbaycanda Heydər Əliyev ideyaları yaşayır, onun təməlini qoyduğu möhtəşəm işlər Heydər Əliyev siyasi məktəbinin yetirməsi Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən uğurla, ardıcıllıqla həyata keçirilir. Heydər Əliyevin əziz xatirəsi xalqımızın qəlbində daim yaşayır və yaşayacaqdır.

**Yadigar ŞİRMƏMMƏDOV,**
**ADY QSC Bakı**
**Lokomotiv Deposunun rəisi.**